# Ədalət, mərhəmət, ləyaqət hissi...

*"Bakıda qarşılaşdığım bir məqamdan təəccübləndiyim qədər də təsirləndim: şəhərin mərkəzi stadionu dünyaşöhrətli futbol hakimi Tofiq Bəhramovun adını daşıyır. Məlumdur ki, futbol hakiminin adına dünyanın ən iri futbol mərkəzləri hesab olunan şəhərlərdə belə stadionla qarşılaşmazsan. Azərbaycan bu sahədə ilk addım atıb. Əslinə qalsa Tofiq Bəhramov kimi dünyada çox tanınan ikinci bir futbol hakimini də xatırlamaq çətindir". UEFA-nın keçmiş prezidenti Mişel Platininin bu sözləri hər bir azərbaycanlıda xoş duyğu yaradır. Söhbət dünyanın ən ədalətli hakimindən gedir, fəxrimiz Tofiq Bəhramovdan...*



## Prezidentin fəaliyyətində əsaslandığı bu prinsiplər idmanda da əksini tapır

## İdmanın inkişafı həm də Vətənə olan sədaqətin, fədakarlığın rəhnidir

Ötən əsrin 60-cı illəri idi. Tofiq Bəhramov artıq dünya səviyyəsində futbol oyunlarını idarə edirdi. Tanınırdı. 1966-cı ildə İngiltərə və Almaniya arasında dünya çempionatının son mərhələ oyununda Tofiq Bəhramov yan xətt hakimi kimi meydançaya çıxdı və demək olar ki, həmin ağır, çox çətin yarışın taleyinin həllində məhz azərbaycanlı hakimin qətiyyətli rəyi əsas həlledici amil oldu. İngilislərin vurduğu topun qapı xəttini keçib-keçməməsi çox ciddi mübahisəyə çevrildi. Çünki elə o məqamda qol olub-olmaması ilə əlaqədar rəylər haçalandı. Futbolçular, hakimlər, matçı izləyənlər arasında qızğın mübahisə yarandı, son fikri bildirmək üçün baş hakim Tofiq Bəhramova sarı addımladı. Azərbaycanlı referi qəti jestlə mərkəzi göstərdi, sözlə və əlindəki bayraqla da qol olmasını təsdiqlədi. Məhz bundan sonra matçın taleyi həll edildi. İngiltərə yığma komandası dünya çempionu oldu.

Ancaq mübahisə səngimədi. Uzun illər dünya mətbuatında müzakirə mövzusuna çevrilən həmin məsələ bir hakim kimi Tofiq Bəhramova düzgün qərarına görə həmrəylik ifadəsi ilə tamama yetdi. Məhz bu çempionatdan sonra azərbaycanlı referinin şöhrəti planetin hər yerinə yayıldı. Bu, təkcə bir futbol hakiminin düzgün qərarı deyildi, onun təmsil etdiyi, hər zaman haqqın, ədalətin tərəfində olan xalqına xas keyfiyyətlər: ədalət, mərhəmət, ləyaqət hisslərinin təcəssümü idi...

Ədalət... Bugünkü dünyanın gələcək taleyi üçün gərəkli olan insani dəyər, ölçü. Ona bu gün həmişəkindən daha çox ehtiyac var, çünki nə qədər ki, ikili standartlar, ədalətsizlik hökm sürəcək planetimizn sabahı da şübhə altına alınacaq. Elə dünya idmanının sabahı da bu ədalətə söykənir. İdman yarışlarını izləmək hər bir azarkeşə xoş anlar yaşadır, xüsusən də sevimli komandasını, oyunçusunu, idmançısını hər kəs həmişə qalib görmək istəyir. Əlbəttə, idmanda qalibiyyət də var, məğlubiyyət də, lakin bunların hər ikisi öz mizanında olmalıdır.

Tarix boyu Azərbaycan idmançıları haqsızlıqlarla çox üzləşib, təəssüf ki, bu xoşagəlməz ənənə hələ də davam edir. 2021-ci ildə UEFA Konfrans Liqasında pley-off mərhələsinə yüksələn "Qarabağ" futbol klubuna qarşı edilən haqsızlıq yəqin ki, idmansevərlərin yadındadır. "Qarabağ" futbol klubunun üzvləri ilə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev məhz həmin məqamlara toxunaraq demişdi: "Avropa Konfrans Liqası turnirinin pley-off mərhələsinə çıxmaq doğrudan da böyük nailiyyətdir. Əlbəttə, biz səkkizdəbir oyuna birbaşa çıxa bilərdik, ancaq əfsuslar olsun ki, hakim ədalətsizliyi buna imkan vermədi. Mən bu sözü təsadüfən işlətmirəm: hakim səhvi yox, hakim ədalətsizliyi. Çünki bu biabırçı hadisəyə səhv demək düzgün olmaz. Eyni zamanda, bu, birinci dəfə deyil ki, "Qarabağ" futbol klubu Avropa yarışlarında belə açıq ədalətsizliklə üzləşir...".

Bax, yazımıza dünya səviyyəsində ədalətli qərarları ilə tanınan həmyerlimizlə başlamağımızın da ilk səbəbi elə bu idi! Ədalətli hakim!.. 56 il bundan öncə dünyaya və Avropaya ədalətli hakim imicini təlqin etdiyi halda, Avropanın bu ədalətsizliyi bu gün təkcə idmançılarımızı deyil, bütünlüklə xalqımızı məyus edir.

Səbir, təmkin... Tanrının ən çox sevdiyi keyfiyyətlərdir, yəni o, səbirli, təmkinli bəndələrini sevər, onun tərəfində olar. Dövlət başçısı güləşçi idmançılarımızla görüşündə də bu məqamlardan danışmış, beynəlxalq yarışlarda hakim haqsızlığı ilə üzləşən idmançılarımızın ləyaqətli davranışlarını xüsusilə dəyərləndirmişdi: "Bizim məşhur məşqçimiz Qurban Qurbanov çox ləyaqətli hərəkət etmişdir və qol sayıla biləcək vəziyyətdə demişdir ki, yox, bu, bizə lazım deyil, bizə saxta nailiyyət lazım deyil, qazanılmamış uğur lazım deyil. Nəyi qazanmışıqsa, öz əməyimizlə qazanmışıq".

"Qarabağ" futbol komandasının üzvləri ilə görüşdə çıxış edən məşqçi Qurban Qurbanov da məruz qaldıqları haqsızlığa qarşı münasibət bildirmiş: "Son oyunda hakimin səhvindən sonra, elə orada mən öz müsahibəmdə bildirdim ki, bizə qarşı böyük bir ədalətsizlik olub. Amma bu, bizə daha da güc verir və bizi daha da ruhlandırır. Onların qarşısında bunu söylədim" - demişdi.

Azərbaycan Prezidenti İlham Əliyevin istər idarəçilik, istərsə də insani keyfiyyətlərində özünü qabarıq göstərən elə cəhətlər var ki, dünyanın ən aparıcı dövlətinin rəhbəri üçün də örnəkdir. Hakimiyyətə gəldiyi ilk gündən xalqının milli maraqlarının müdafiəsində duracağına vəd verən dövlət başçısı bu ali məqsədi reallaşdırmaq üçün özünəməxsus insani dəyərlərə əsaslanır. Onun üçün ədalətli olmaq, ədalətli qərarlar çıxarmaq, hər şeyi ləyaqətlə yerinə yetirmək də həmişə önəmli olub. Yüksək qayğıkeşlik, humanizm, xeyirxahlıq, mərhəmət hissi kimi əxlaqi-mənəvi keyfiyyətlər də İlham Əliyev fenomeninin səciyyəvi cəhətlərindəndir. Hər bir insana qarşı həssaslıq, insanların problemlərini duymaq qabiliyyəti, xalqın güzəranının yaxşılaşdırılmasının ali məqsəd kimi irəli sürülməsi İlham Əliyev humanizminin başlıca tərkib hissəsidir.

Vətən müharibəsi dövründə dünyanın müxtəlif siyasi proseslərini dəqiqliklə bilən dövlət rəhbərinin hadisələrin gedişatını dəyərləndirmək və bundan da müəyyən nəticələrə gələ bilmək qabiliyyəti onun da fəaliyyətində açıq nəzərə çarpır. İllərlə fəaliyyətini Qarabağ zəfərinə kökləyən ölkə başçısı zamanında bu gedişatı dəyərləndirərək Qoşulmama Hərəkatı çərçivəsində aktiv fəaliyyətimiz bu siyasi təsisatın dünyada nüfuzunu artırdısa, həm də zamanında düşünülərək atılan addımlar ən dar məqamda köməyimizə gəldi. Məhz Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrinə istinadın edilmədiyi birtərəfli mətbuat açıqlamasının qəbul edilməsinə imkan vermədilər. Bu baxımdan da xarici siyasətin zaman və şəraitlə əlaqələndirilməsi, münasibətlərin zəruri istiqamətlərinin müəyyən edilməsi Ali Baş Komandan kimi ən taleyüklü anlarda ədaləti qoruyaraq verdiyi əmr və davranışları qəbul etdiyi qərarların uğurlu nəticəsi idi. O, ən çıxılmaz məqamlarda, bəzən başqaları üçün həlli mümkünsüz görünən məsələlərdə belə qətiyyətlə məsuliyyəti öz üzərinə götürüb məqsədinə çatır. Vətən müharibəsində ermənilərin döyüş meydanından uzaqda yerləşən yaşayış məntəqələrini atəşə tutmasına, insan tələfatının olmasına rəğmən həmişə siyasi sayıqlığını qoruyub: "Biz heç zman mülki əhaliyə qarşı döyüş aparmamışıq" deməklə, özünün mərhəmət, ədalət, ləyaqət hissi kimi prinsiplərə sadiqliyini nümayiş etdirirdi. Azərbaycan xalqının öz liderinə tükənməz sevgisinin kökündə də onun bu ali prinsiplərə sədaqətinin xüsusi yer tutması dayanır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**